**Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Tacikistan Respublikasının Dövlət Statistika Komitəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında**

# S A Z İ Ş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və Tacikistan Respublikasının Dövlət Statistika Komitəsi,

statistikanın inkişafı, statistik məlumatların təkmilləşdirilməsi və hərtərəfli əlaqələrin möhkəmləndirilməsi sahəsində əməkdaşlığın təşkil edilməsində qarşılıqlı maraqları əldə rəhbər tutaraq

aşağıdakılar barədə razılığa gəlmişlər:

## Maddə 1

Tərəflər milli qanunvericilik çərçivəsində aşağıdakı sahələrdə ikitərəfli əməkdaşlığın həyata keçirilməsini öhdələrinə götürürlər:

- uçot və sorğuların, siyahıyaalmaların və müayinələrin statistik sisteminin yaradılması və istifadə edilməsi üzrə metodoloji materialların və işləmələrin mübadiləsi;
- statistikanın təkmilləşdirilməsi, milli hesablar sisteminin təşkili və tətbiqi məsələləri üzrə təcrübə mübadiləsi;
- statistik nəşrlərin (dövlətlərin və ya onların ayrı-ayrı regionlarının sosial-iqtisadi vəziyyətindəki dəyişikliklərlə bağlı illik məcmuələrin, külliyatların, bülletenlərin, məlumatların və icmalların, qanunvericilik aktlarının) mübadiləsi;
- milli statistika xidmətlərinin mütəxəssisləri üçün birgə seminarların və digər ümumi tədbirlərin təşkili.

## Maddə 2

Əməkdaşlıq bu Sazişin ayrılmaz hissəsi hesab olunan qarşılıqlı razılıq əsasında işlənib hazırlanmış və hər iki statistika təşkilatının rəhbərləri tərəfindən 2 illik dövr üçün təsdiq olunmuş tədbirlər planı əsasında həyata keçiriləcəkdir.

## Maddə 3

Əməkdaşlığın əlaqələndirilməsi hər iki Tərəfdən təyin olunmuş səlahiyyətli şəxslər tərəfindən həyata keçirilir.

## Maddə 4

Əməkdaşlıq prosesində bir Tərəfdən alınmış informasiya yalnız bu informasiyanı təqdim edən Tərəfin yazılı razılığı əsasında üçüncü tərəfə verilə bilər. Əməkdaşlıq prosesində alınan infomasiya Tərəflərin mənafelərinin ziyanına istifadə edilə bilməz.

## Maddə 5

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan, Sazişin 6-cı maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən və ayrıca Protokollarla rəsmiləşdirilən əlavələr və dəyişikliklər edilə bilər.

## Maddə 6

Bu Saziş, onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin diplomatik kanallar vasitəsilə sonuncu yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş qeyri-müəyyən müddətə imzalanır. Onun qüvvəsi Tərəflərdən birinin Sazişin qüvvəsinə xitam vermək niyyəti barədə diplomatik kanallarla digər Tərəfə göndərdiyi yazılı bildiriş vasitəsilə dayandırıla bilər. Saziş belə bildirişin alındığı tarixdən altı ay sonra qüvvəsini itirir.

Bu Saziş Bakı şəhərində "13" avqust 2007-ci il tarixində iki nüsxədə Azərbaycan, tacik və rus dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Sazişin təfsirində fikir ayrılığı yarındığı təqdirdə rus dilində olan mətn əsas götürüləcəkdir.

| | |
|---|---|
| **Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi adından** | **Tacikistan Respublikasının Dövlət Statistika Komitəsi adından** |
| A. Baxar... [signature] | [signature] |